Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 824; 2009, № 11, maddə 886; 2010, № 2, maddələr 78, 80, № 7, maddə 610) ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "İxtisarlar" bölməsində "AQUPDK" akronimindən sonra "AHİK - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası", "ARPTK" akronimindən sonra "AS(İ)TMK - Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası" sözləri əlavə edilsin.

1.2. 2 nömrəli Əlavə üzrə:

1.2.1. aşağıdakı məzmunda 1-1-ci bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| 1-1.Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı | 2011-2013 | müvafiq dövlət orqanları |

1.2.2. "Enerji təminatı" hissəsindən sonra aşağıdakı məzmunda "İqtisadiyyatın inkişafı" hissəsi əlavə edilsin:

| İqtisadiyyatın inkişafı | | | |
|---|---|---|---|
| 3-1. Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramı | 2010 - 2014 | NN | |
| 3-2. Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı | 2010 - 2014 | MdTN | |
| 3-3. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı | 2009 - 2013 | RİTN | |
| 3-4. Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı | 2008 -2015 | KTN, İİN | |

1.2.3. aşağıdakı məzmunda 9-1-ci bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| 9-1. Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı | | DSMF |

| | | |
|---|---|---|
| | 2009 -2015 | |

1.2.4. aşağıdakı məzmunda 17-1-ci bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| 17-1. Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı | 2009 -2018 | SN |

1.2.5. aşağıdakı məzmunda 24-1-ci bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| 24-1. Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı | 2009 -2013 | TN |

1.2.6. "Təhsil" hissəsindən sonra aşağıdakı məzmunda "Elm və mədəniyyət" hissəsi əlavə edilsin:

| Elm və mədəniyyət | | |
|---|---|---|
| 24-2. Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiya və Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı | 2009 - 2015 | AMEA |
| 24-3. Azərbaycan teatrı Dövlət Proqramı | 2009 - 2019 | MdTN |
| 24-4. Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı | 2009 - 2014 | GİN |
| 24-5. Azərbaycan kinosunun inkişafına dair Dövlət Proqramı | 2008 -2018 | MdTN |

1.2.7. aşağıdakı məzmunda 36-1-ci və 36-2-ci bəndlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 36-1. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramı (Elektron Azərbaycan) | 2010-2012 | RİTN |
| 36-2. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin inkişafı üzrə Dövlət Proqramı | 2008 -2013 | MdTN |

1.2.8. aşağıdakı məzmunda 38-ci və 39-cu bəndlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 38. Azərbaycan ədliyyəsinin inkişafına dair Dövlət Proqramı | 2009 -2013 | ƏN |
| 39. Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafına dair Dövlət Proqramı | 2011 -2020 | QKDK |